Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.

Heydər Əliyev.



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 14 (9222) | 31 iyul 2016-cı il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 50 qəpik

# HESABAT YIĞINCAĞI KEÇİRİLMİŞDİR

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə iyul ayının 10-da Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.**

Bununla əlaqədar Qazax rayonunda hesabat yığıncağı olmuşdur.

Hesabat yığıncağında rayon ictimaiyyətinin nümayəndələri, idarə və müəssisə rəhbərləri iştirak etmişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov iclası giriş sözü ilə açaraq tədbirin gündəliyi barədə yığıncaq iştirakçılarına məlumat vermişdir.

Yığıncaqda rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş məruzə ilə çıxış etmişdir. Qeyd etmişdir ki, hesabat dövründə respublikamızda Prezident İlham Əliyevin rəhbərliyi altında genişmiqyaslı işlər görülmüş, bütün sahələr üzrə uğurlu nəticələr əldə edilmişdir.




Respublikamızda gedən dinamik inkişaf strategiyası Qazax rayonunda da davam etdirilmiş və 2016-cı ilin birinci yarısında yüksək göstəricilər qazanılmışdır. Hesabat dövründə əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində yaddaqalan tədbirlər həyata keçirilmişdir. Rayonumuzda "Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq təmir-tikinti, abadlıq, bərpa və quruculuq işləri 2016-cı ilin birinci yarısında da uğurla həyata keçirilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur. Qazax rayon kənd təsərrüfatı idarəsinin rəisi Həmid Pənahov, rayon suvarma sistemləri idarəsinin rəisi Abbas Göyüşov və Qazax elektrik şəbəkəsinin rəisi Elşad Məmmədov çıxış edərək rəhbərlik etdikləri idarə və müəssisələrdə hesabat dövründə görülən işlərdən söz açmışlar.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov hesabat yığıncağına yekun vuraraq qarşıda duran vəzifələrdən, həyata keçiriləcək işlərdən danışmışdır.

**Elçin İSMAYIL**

# MİLLİ MƏCLİSİN DEPUTATLARI QAZAX RAYONUNUN MƏZƏM KƏNDİNDƏ YERLİ SAKİNLƏRLƏ GÖRÜŞMÜŞLƏR





**Qazax rayonunun Ermənistanla ən yaxın məsafədə yerləşən Məzəm kəndi mütəmadi olaraq düşmən tərəfindən atəşə tutulan kəndlərimizdən biridir. Kənd sakinləri 8 şəhid verməsinə baxmayaraq həyat burada öz axarı ilə davam edir. Döyüş bölgəsində yaşayan bu mərd insanlara istər Qazax rayon İcra Hakimiyyəti, istərsə də respublikamızın ali dövlət qurumları tərəfindən həmişə diqqət və qayğı göstərilir.**

Bu günlərdə Milli Məclisin deputatları Kamran Nəbizadə, Fuad Muradov və Adil Əliyev Məzəm kəndində olmuş, yerli sakinlərlə görüşmüşlər. Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov millət vəkillərinə Məzəm haqqında, onun üç bir tərəfdən düşmənin atəş nöqtələri ilə əhatə olunması və camaatın təhlükəsizliyinin təmin olunması məqsədilə gördüyü işlər barədə məlumat vermişdir. Bildirmişdir ki, istinad divarları çəkildikdən sonra yerli sakinlər öz həyətlərində, evlərində rahat yaşaya bilir, normal həyat sürürlər.



Kənd sakinləri evlərin qarşısına müdafiə divarları çəkildikdən sonra kənddə təhlükəsiz yaşadıqlarından, hər cür diqqət və qayğı ilə təmin olunduqlarından danışmışlar. Qeyd etmişlər ki, elan olunmamış bu müharibə başlayan vaxtdan indiyə kimi ilk dəfədir ki, onlar öz doğma evlərində, həyətlərində qorxusuz yaşayır, düşmənin atəş nöqtələrinin çox yaxın məsafədə yerləşməsinə baxmayaraq asudə həyat sürürlər.

Evlərin divarlarındakı güllə izlərinə, düşmən tərəfindən açılmış atəş nəticəsində çilik-çilik olmuş pəncərə şüşələrinə baxan millət vəkilləri kənd sakinlərinə həmişə onların yanında olacaqlarını bildirmişlər. Evlərin qarşısına çəkiləmiş istinad divarlarının əhəmiyyətini qeyd edərək rayon rəhbərliyinin həyata keçirdiyi bu işi yüksək qiymətləndirmişlər.

Kənd sakinləri ilə görüşdə "İrəli" İctimai Birliyinin sədri Mirhəsən Seyidov, sərbəst güləş üzrə Azərbaycan Yığma Komandasının böyük məşqçisi Firdovsi Umudov da iştirak etmişdir.

**Elçin İSMAYIL**

BAŞ REDAKTORDAN

# SƏN ÖZÜN, NƏ EDİBSƏN?

## BU GÜN RAYONUMUZUN BÜTÜN SAHƏLƏRİNDƏ BAŞLANMIŞ TİKİNTİ-QURUCULUQ VƏ ABADLIQ İŞLƏRİNDƏ HƏR BİR RAYON SAKİNİ ÖZ ƏMƏYİNİ ƏSİRGƏMƏMƏLİDİR

**Qazax respublikamızın ən sayılıb seçilən rayonlarından biridir. Qədim tarixə malik olan, şair və yazıçıları, elm xadimləri ilə tanınan rayonumuzun adı həmişə hörmətlə çəkilmişdir və bu gün də belədir. İllərdən bəri öz təsdiqini tapmış bu həqiqəti yaşatmaq və daha da inkişaf etdirmək isə hər bir qazaxlının borcudur.**

Hal-hazırda rayonumuzda genişmiqyaslı tikinti-quruculuq işlərinə başlanılmışdır. Həyatın bütün sahələrində inkişaf prosesi getməkdədir. Bu gün istər rayon mərkəzində, istərsə də kəndlərdə tikinti və quruculuq işlərinə start verilmişdir. Abadlıq istiqamətində aparılan tədbirlər artıq öz bəhrəsini verməkdədir. Qazax bu gün, sözün əsl mənasında böyük bir tikinti meydançasına bənzəyir. Hər yerdə qızğın iş gedir. Bütün bunlar isə son nəticədə rayonumuzun simasının yaxşı mənada dəyişməsinə, onun daha da abad və yaraşıqlı olmasına gətirib çıxarır.

Bu gün şəhərdəki Bayraq Meydanında, Qüllənin ətrafındakı dairədə, rayonumuzun ünvanını bildirən Obeliskdə bərpa və abadlıq işləri görülür, həmin yerlər yeni bir formaya salınır, görkəmi daha da yaxşılaşır. Prospektdə yerləşən yaşayış evlərinin dam örtükləri sökülərək yeniləri ilə əvəz olunur, yeni görkəmə salınır. Rayonumuzda aparılan quruculuq işlərini saymaqla qurtaran deyil. Bu gün qətiyyətlə bildirmək olar ki, Qazax özünün quruculuq və inkişaf dövrünü yaşayır.

Bu gün rayonumuzda demək olar ki, bütün sahələrdə tikinti-quruculuq işləri həyata keçirilir. Qazax simasını sözün yaxşı mənasında gündən-günə dəyişir. Lakin təəssüf ki, bu ümumxalq işindən kənarda qalanlar da var. Bu gün necə deyərlər, quruculuq işlərində seyrçi mövqe tutan, öz potensial qüvvəsini bu istiqamətə yönəltməyən adamlar da az deyildir. Biz isə belə insanları nədənsə sadəcə olaraq kənardan seyr edir, öz münasibətimizi bildirmirik. Belə adamlarla biz ünsiyyət qurmalı, yaşadığın cəmiyyət, üzərində gəzdiyin torpaq üçün nə isə faydalı bir iş görməsini onların nəzərinə çatdırmalıyıq. "Doğulduğun, boya-başa çatdığın bu şəhər üçün sən özün nə etmisən?" - deyə soruşmalıyıq. Əgər baş verən yeniliklərə, gedən quruculuq işlərinə belə insanlar öz əməyini vermirsə və biz belə hallarda sadəcə olaraq seyrçi mövqe tuturuqsa, deməli bizim də həmin kəsdən elə bir fərqimiz yoxdur.

İctimai qınaq. Bu gün cəmiyyətimiz inkişaf edib həyatımız gözəlləşdikcə bu quruculuq və abadlıq işlərindən kənarda duran insanları adam başa düşə bilmir. Məhz belə məqamlarda biz ictimai qınaq formalarından istifadə etməliyik. Təcrübələr göstərir ki, yerində deyilən söz, yerində bildirilən münasibət daha kəsərli, daha effektiv olur və müsbət təsir göstərir. Ona görə də hər bir fəal insan, bu ölkənin vətəndaşı seyrçi mövqe tutmamalı, inkişafımıza, tərəqqimizə öz əməyini verməyənlərin layiqli cavablarını verməlidir. Bunun üçün isə deməyə sözümüz, verməyə cavabımız da var. Sadəcə laqeyd olmamaq, münasibət bildirmək lazım gəlir hər birimizdən. Çünki ictimai yerdə deyilən hər bir sözün və yaxud fikrin öz çəkisi, öz xüsusi təsiri vardır.

Rayonumuz gündən-günə inkişaf edir, şəhərimiz yaxşı mənada öz görkəmini dəyişərək tədricən respublikamızın ən abad şəhərlərindən birinə çevrilir. Aparılan bu məqsədyönlü işlər sənin, mənim, hamımız üçündür. Rayonumuza gələn qonaqlar əgər şəhərimizə baxıb razı qalırlarsa, yaşlı nəsil aparılan abadlıq işləri ilə fəxr edirsə, yeniyetmə və gənclərimiz öz gələcək həyatlarını hər cür şəraitdə keçirəcəklərinə əmindirlərsə, burada pis nə var ki?

Böyük əminliklə demək olar ki, yaxın bir-iki il ərzində şəhərimizin siması köklü şəkildə dəyişəcək, Qazaxın şöhrətli adının üstünə daha bir şöhrət əlavə olacaqdır. Vaxt gələcək bu gün başlanan tikinti-quruculuq işləri başa çatdırılacaq, yeni-yeni binalar, asudə vaxt mərkəzləri inşa ediləcək, şəhərimiz başdan-başa gözəlləşəcəkdir.

Biz son aylar ərzində rayonumuzda start götürmüş quruculuq işləri barədə rayon sakinlərinin fikirlərini öyrənmək məqsədilə həm kəndlərdə, həm də rayon mərkəzində yaşayan, müxtəlif təbəqələri təmsil edən insanlar arasında rəy sorğusu apardıq. Sorğuda münasibəti soruşulan respodentlər yüksək fikirlər söylədilər. "Göyəzən" qəzeti tərəfindən sakinlər arasında aparılan rəy sorğusunun nəticələri göstərir ki, rayon sakinləri həyata keçirilən tikinti-quruculuq işlərini razılıq hissləri ilə qarşılayır, öz minnətdarlıqlarını bildirirlər. Fikri soruşulan adamların böyük əksəriyyəti özünün müsbət fikrini bildirmiş, görülən işləri dəstəkləmişdir. Bu da rayonda aparılan tikinti-quruculuq işlərinin sakinlərin ürəyincə olduğundan xəbər verir.

Rayonumuzda həyat öz coşqunluğu, öz axarı ilə davam edir. Yaşayış tərzimiz, şəraitimiz gündən-günə daha da yaxşılaşır, daha ürək açan olur. Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun rəhbərliyi altında qazaxlılar yeni-yeni xarüqələr yaradır, bu ümumxalq işindən öz qüvvələrini əsirgəmirlər. Bu xeyirxah fəaliyyətdə seyrçi mövqe tutan insanlara isə demək istəyirəm:

**"SƏN ÖZÜN, QAZAX RAYONU ÜÇÜN NƏ EDİBSƏN?"**

**Elçin İSMAYIL**

# 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun

# HESABAT MƏRUZƏSİ

***Bildiyiniz kimi, iyul ayının 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir. Dövlət başçısı iclası giriş sözü ilə açmış, görülmüş işlər və qarşıda duran vəzifələr barədə geniş nitq söyləyərək bildirmişdir ki, 2016-cı ildə Azərbaycanın uğurlu inkişafı təmin edilir, ölkəmizdə təhlükəsizlik yüksək səviyyədə qorunur, ictimai-siyasi sabitlik möhkəmlənir. Ölkə qarşısında duran bütün əsas vəzifələr uğurla icra edilir.***

Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün prioritet məsələdir. Bu məsələnin tezliklə beynəlxalq hüququn norma və prinsiplər əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi bizim üçün əsas vəzifədir. Bu münaqişənin həllinin başqa məqamları yoxdur. Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü tanınır və münaqişə bu prinsiplər əsasında öz həllini tapmalıdır.

2016-cı ildə bizim xarici siyasətimiz də çox uğurlu olmuşdur. Bununla bərabər, təbii ki, biz hərbi potensialımızı gücləndiririk. Aprel döyüşləri bir daha göstərdi ki, biz düzgün siyasət aparırıq. Bu gün Azərbaycan ordusu istənilən hərbi vəzifəni icra edə bilər. Əlbəttə, bütün bu məsələləri həll etmək üçün bizim güclü iqtisadi potensialımız olmalıdır. Baxmayaraq ki, il ərzində neftin qiyməti 3-4 dəfə düşüb. Lakin Azərbaycan inkişaf edir. İqtisadiyyatın əsas sahələri-sənaye və kənd təsərrüfatı artıb. Sənaye istehsalı 0,6 faiz, qeyri-neft sənayesi 2,4 faiz, kənd təsərrüfatı 3 faizdən bir qədər çox artıb. Ölkə iqtisadiyyatına 6,3 milyard dollar sərmayə qoyulur. İlin altı ayında 78 min daimi iş yeri açılıb. Güzəştli şərtlərlə verilən kreditlərin həcmi 1 milyard dolları ötüb.

2016-cı ilin birinci yarısında sosial məsələlərin həlli istiqamətində də çox ciddi addımlar atılmışdır. Ümumiyyətlə, 2016-cı ilin ötən dövründə bəzi ölkələrdə maaşlar, pensiyalar ixtisar edilib. Ancaq Azərbaycanda maaşlar və pensiyalar 10 faiz artıb. Bu il ölkəmizdə sosial mənzillərin inşasına başlanacaqdır. Burada əsas məqsəd aztəminatlı ailələrə çox əlverişli şərtlərlə mənzillərin verilməsidir.

2016-cı il dərin iqtisadi islahatlar ili kimi tarixdə qalacaqdır. Həm maliyyə-bank sektorunda, həm də kənd təsərrüfatının, sənaye potensialımızın inkişafı ilə bağlı çox ciddi islahatlar aparılır. İxracın stimullaşdırılması, investisiya cəlb edilməsi üçün çox böyük güzəştlər tətbiq olunur. Eyni zamanda, vergi sahəsində, xüsusilə gömrük sektorunda ciddi islahatlar aparılır. Bu il gömrük orqanlarından daxilolmalar plandan 17 faiz, vergi orqanlarında yığım plandan 2 faiz artıq təmin edilib. Yəni, bütün sahələrdə islahatlar dərinləşməlidir, şəffaflıq təmin edilməlidir, maliyyə nəzarəti daha da gücləndirilməlidir. Belə olan halda biz neftdən asılılığı aradan götürəcəyik. Məsələ belə qoyulub. Bir neçə il ərzində dövlət büdcəmiz, onun mütləq əksəriyyəti qeyri-neft sektoru hesabına təmin edilməlidir. İnsanlara daha çox imkanlar yaradılmalıdır ki, onlar özləri öz məşğulluğunu təmin etsinlər. Biz uzun illərdir ki, insanlara ünvanlı sosial yardım veririk. Bu imkandan yüz mindən çox ailə istifadə edir. Ancaq biz tədricən həmin aztəminatlı ailələr üçün şərait yaratmalıyıq ki, onlar özləri pul qazansınlar, özləri işlə məşğul olsunlar. Çünki bəzi hallarda dövlət sektorunda açılmış iş yerlərinə o qədər də böyük maraq göstərilmir. Bəziləri deyirlər ki, mən dövlətdən yardım alıram, niyə gedib işləməliyəm? Bu, yaxşı hal deyil. Bu, ələbaxımlıq yaradır, ona görə də dövlət qurumları şərait yaratmalıdır ki, tədricən ünvanlı sosial yardım əvəzinə hər bir insan özü üçün iş qursun.

2016-cı ilin birinci yarısında, doğrudan da, böyük işlər görülüb. Biz bu işlərin nəticələrini gələcək illərdə görəcəyik.

2016-cı ilin birinci yarımili rayonumuz üçün uğurlu olmuşdur.

(Davamı səh.2-də)

# 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun

# HESABAT MƏRUZƏSİ

*(Əvvəli səh.1-də)*

Qazax rayonu üzrə 2016-cı ilin yerli gəlir və xərclərinin proqnozu 19.670.799 manat məbləğində müəyyənləşdirilmişdir. Büdcənin mədaxil hissəsinin 6.614.000 manatını yerli daxilolmalar, 13.056.799 manatını isə mərkəzləşdirilmiş xərclərdən alınacaq dotasiya təşkil etmişdir. Mədaxil hissədə yerli daxilolmalar 33,6 faiz, dotasiya isə 66,4 faiz olmuşdur.

2016-cı ilin birinci yarısında yerli daxilolmalar 2.963.072 manat proqnoza qarşı 3.052.392 manat və ya 103,0 faiz yerinə yetirilərək büdcəyə 89.320 manat çox vəsait mədaxil olmuşdur. Mərkəzləşdirilmiş xərclərdən alınası dotasiya 6.605.771 manat icra olunmuşdur. (108%)

2016-cı ilin 6 ayında yerli xərclər 98,14 faiz və ya 178.366 manat az icra olunmuşdur. İcra zamanı ilk növbədə əməkhaqqı və ona bərabər tutulan zəruri xərclərin ödənilməsinə üstünlük verilmişdir. Cəmi yerli xərclər 9.569.621 manata qarşı 9.391.255 manat yerinə yetirilmişdir.

Rayon ərazisində 7 özəl bank filialı, 1 özəl bank şöbəsi, 1 kredit ittifaqı və 4 bank olmayan kredit təşkilatı fəaliyyət göstərir. 2016-cı ilin 6 ayı ərzində əhaliyə 7.178.131 manat və 505.346 ABŞ dolları kredit verilmişdir ki, bunun da hamısı qısamüddətlidir. Əhalidən 645.138 manat və 539.756 ABŞ dolları əmanət cəlb olunmuşdur. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 382 nəfərlik iş yerinin açılması məqsədi ilə 24 layihə üzrə 7.602.500 manat kredit verilmişdir ki, bunun 15.000 manatı yeyinti sənayesi, 211.500 manatı kənd təsərrüfatı məhsulları istehsalı, 15.000 manatı ağac emalı (mebel) və 7.361.000 manatı isə tikinti materialları istehsalı sahələrinə ayrılmışdır.

Dövlət Sosial Müdafiə Fondunun Qazax rayon şöbəsi tərəfindən əhalinin pensiya və müavinətlərinin ödənilməsi üçün 2016-cı ilin 6 ayında ödəniş müəssisələrinə 13.968.400 manat vəsait köçürülmüşdür. Bu isə keçən ilin müvafiq dövrünə nisbətən 269.000 manat çoxdur. Şöbədə 2016-cı ilin 6 ayında sosial sığorta haqları üzrə yığım proqnozu 90,6 faiz yerinə yetirilmişdir. Bu göstərici büdcə təşkilatları üzrə 2.033.500 manat proqnoza qarşı 1.918.000 manat, yəni 94,3 faiz, qeyri büdcə təşkilatları üzrə 558.400 manata qarşı 431.000 manat olmaqla 77,1 faiz, hüquqi şəxslər üzrə 312.600 manata qarşı 276.600 manat olmaqla 88,4 faiz və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə isə 225.600 manata qarşı 150.700 manat toplanmaqla 66,7 faiz yerinə yetirilmişdir.

2016-cı ilin 6 ayında Qazax rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən 2.643.095 manat aylıq müavinət və birdəfəlik müavinət təyin edilmiş və ödənilmişdir. Ötən 6 ay ərzində Mərkəz tərəfindən 1.466 ailəyə ünvanlı sosial yardım təyin edimiş, həmin ailələrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 1.362.722 manat vəsait ödənilmişdir.

Hesabat dövrü ərzində əhalinin elektrik enerjisi və təbii qaz yanacağı ilə təmin olunması sahəsində də müəyyən işlər görülmüşdür.

2016-cı ilin birinci yarısında Qazax Elektrik şəbəkəsi tərəfindən 10 kv hava xəttində 14,48 km, 0,4 kv hava xəttində 9,2 km uzunluğunda cari təmir işləri aparılmış, 318 ədəd yararsız dayaqlar yenisi ilə əvəz edilmiş və 332 ədəd transformator cari təmir olunaraq sxemaya qoşulmuşdur. Əhali tərəfindən 296 yeni tikilmiş evlərə sayğaclar quraşdırılmış, 3,8 km uzunluğunda giriş xətləri çəkilmiş, 780 ədəd zədəli sayğaclar yeni elektron sayğaclarla əvəz edilmişdir.

Daş Salahlı kəndində yerləşən "Avey" hərbi postuna 51 ədəd dayaq quraşdırılmaqla 3,5 km uzunluğunda xətt çəkilərək elektrik enerjisi verilmişdir. 35/10 Qazax-1 və 110/35/6 Daş Salahlı yarımstansiyasında yenidənqurma işləri aparılır. Qazax şəhəri və Ağköynək, Xanlıqlar, Birinci Şıxlı kəndlərində sipləşmə ilə əlaqədar 23 transformator quraşdırılmış, 28,9 km sip kabel çəkilərək 1507 ədəd dayaq quraşdırılmışdır. Hazırda sipləşmə işləri davam edir. 2016-cı ilin axrınadak əlavə 25 ədəd müxtəlif güclərdə transformatorların quraşdırılması nəzərdə tutulmuşdur. Ötən dövrdə əhaliyə satılan enerjinin dəyəri 1.049.386 manat, toplanan vəsait isə 1.016.719 manat olmuşdur. Cəmi yığım 88,77 faiz, o cümlədən yerli əhali üzrə 96,89 faiz yerinə yetirilmişdir.

Bildiyiniz kimi Qazax rayonunun bütün yaşayış məntəqələri təbii qazla təmin olunmuşdur. Rayon Qaz İstismar Sahəsi tərəfindən 6 ayda əhali abonentlərə satılmış qazın dəyəri 2.264.238 manat olmuş, 2.011.702 manat (88,85%) vəsait yığılmışdır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 176.072 manat az vəsait toplanmışdır.

Qazax Telekommunikasiya Qovşağı cari ilin 6 ayında 2015-ci ilin 6 ayı ilə müqayisədə 31.915 manat artıq vəsait toplayaraq planı 101 faiz yerinə yetirmişdir. 122 ədəd yeni telefon çəkilmiş, 51 ədəd telefon şəbəkəyə bərpa olunmuşdur.

Hesabat dövründə Qazax Poçt filialı tərəfindən əhalidən enerji, qaz, su və telefon pulları qəbul edilərək aidiyyəti təşkilatların bank hesablarına köçürülmüş, plan tapşırıqları 124 faiz yerinə yetirilmişdir. Filial tərəfindən 310 ədəd bağlama qəbul edilmiş və 184 ədəd bağlama müxtəlif ünvanlara göndərilmişdir.

"Qazax Avtovağzal" ATSC-i 2016-cı ilin 6 ayında plana 106 faiz əməl edərək 163.000 sərnişinə xidmət göstərmişdir.



Qazax Su-Kanal idarəsi tərəfindən 2016-cı ilin 6 ayında 5967 abonentə xidmət göstərilmiş və 194.519 manat vəsait toplanmışdır. Bu isə satışın 101 faizini təşkil edir. Təşkilat tərəfindən 2 ədəd subartezian nasosu yenisi ilə əvəz olunub, 1 ədəd artezian nasosu, 3 ədəd su mühərriki və 1 ədəd su mühərrikinin nasos hissəsi əsaslı təmir olunmuşdur.

2016-cı ilin 6 ayı ərzində Coğazçay-Qazax magistral su xəttində baş vermiş qəzalar nəticəsində D 530 mm-lik magistral su xəttinin 11 p/m hissəsi yenisi ilə əvəz olunmuş və Dəmirçilər kəndi ərazisində magistral xəttin çayın içərisindən keçən hissəsində 300 p/m su xəttinin alt hissəsi çınqılla doldurulub bərkidilmişdir.

Ölkə Prezidentinin tapşırığı əsasında işsizliyin aradan qaldırılması məqsədilə 2016-cı ilin fevral ayından abadlıq və quruculuq işlərinin aparılması məqsədilə Kommunal Müəssisələr Kombinatında 100 nəfər işlə təmin olunmuşdur.

Qazax Mənzil İstismar Sahəsi tərəfindən balansında olan 19 çoxmənzilli binanın blok və fasadlarında təmir işlərinin yerinə yetirilməsi üçün 95 nəfər suvaqçı və rəngsaz işə qəbul edilmiş, hazırda həmin işlər yekunlaşmaq üzrədir. Mənzil İstismar Sahəsi ötən 6 ay ərzində iki binanın dam örtüyündə köhnə azbest şiferləri yeni metal kirəmitlərlə əvəz etmiş, vətəndaşlardan 100,2 faiz mənzil xidmət haqqı toplamışdır.

27 saylı Yol İstismar İdarəsi tərəfindən ötən dövr ərzində rayonun uzunluğu 7 km olan Cəfərli, uzunluğu 5 km olan Fərəhli kəndlərinin yollarına, həmçinin Məzəm və Çaylı kəndlərinin kənddaxili yollarına çınqıl döşənmişdir. Rayon ərazisindən keçən magistral avtomobil yolunda və Yuxarı Salahlı-Kəmərli avtomobil yolunda yaranmış çalalar asfalt örtüyü ilə təmir olunmuş, Aslanbəyli kəndində bardurlar düzərək səkilərə asfalt örtüyü qoyulmuşdur.

2016-cı ilin 6 ayı ərzində rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələri tərəfindən də bir sıra işlər görülmüşdür.

Rayon Təhsil şöbəsinin tabeliyində olan 34 tam orta, 1 məktəb-lisey, 6 orta ümumtəhsil, 7 ibtidai məktəb və 5 məktəbdənkənar müəssisə fəaliyyət göstərmişdir. Cari dərs ilində ümumtəhsil məktəblərində təhsil alan 11.439 nəfər şagirdin təlim-tərbiyəsi ilə 1.743 nəfər müəllim məşğul olmuşdur.

2016-cı ilin yanvar ayında keçirilən fənn olimpiadalarının rayon turunda 308 nəfər şagird iştirak etmişdir. Gəncə şəhərində keçirilən zona mərhələsində yüksək yer tutmuş 2 nəfər şagird aprel ayında Bakı şəhərində keçirilən respublika turunda iştirak etmişlər. Qazax şəhər məktəb-liseyin XI sinif şagirdi Leyla Məmmədova Azərbaycan dili və ədəbiyyat fənnindən II yeri tutmuşdur.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə əlaqədar olaraq rayonun IX-XI sinif şagirdləri arasında "Heydər Əliyev uşaqların gözü ilə" şagirdlərin təqdimatı işində Hüseynbəyli kənd tam orta məktəbin X sinif şagirdi İsmayıl Zamanov birinci yeri tutumuşdur.

2015-2016-cı dərs ilində tam orta ümumtəhsil məktəblərinin 845 məzunu olmuş, onlardan 456 nəfəri ali təhsil müəssisələrinə qəbul üçün sənəd vermişdir. I və IV qrupların qəbul imtahanlarında 200-ə yaxın məzun iştirak etmişdir ki, onlardan Canalı kənd tam orta məktəbin məzunu İsmayılova Səbinə Emil qızı 700 bal, 6 nəfər abituriyent isə 600-dən yuxarı bal toplamışlar.

Rayon Mədəniyyət və Turizm şöbəsi 2016-cı ilin 6 ayında rayonda bayram konsertləri, şənliklər keçirmiş, əlamətdar günlər münasibətilə 45 mədəni-kütləvi tədbirlər təşkil etmişdir.

Hesabat dövründə rayonun səhiyyə müəssisələrində ambulator gəlişlərin sayı 82.700 nəfər olmuş, 4.393 nəfər isə laborator, flüoqrafik və rentgen müayinəsindən keçirilmişdir. 6 ay ərzində 145 nəfər şəkərli diabet, 23 nəfər vərəm, 52 nəfər onkoloji xəstə aşkar edilərək dispanser qeydiyyata götürülmüşdür.

Dövlət başçısı İlham Əliyev cənablarının tapşırığına əsasən ölkəmizdə əhalinin tibbi müayinədən keçirilməsi aksiyası Qazax rayonunda da uğurla yerinə yetirilmişdir.

Rayon İcra Hakimiyyəti başçısı aparatında yaradılmış komissiyanın əhali arasında apardığı təbliğat, təşviqat və məlumatlandırma işlərinin nəticəsidir ki, əhali aksiyada mütəşəkkil surətdə iştirak etmişdir. Müayinə nəticəsində 3.018 nəfərə ambulator, 246 nəfərə stasionar müalicə kursu təyin olunmuş, 43 nəfər isə Bakı şəhərinə müalicəyə göndərilmişdir.

Qazax Müalicə Diaqnostika Mərkəzinə 6 ay ərzində 13.383 ambulator gəliş olmuş, cərrahiyyə şöbəsinə 464 xəstə daxil olub, 368 cərrahi əməliyyat aparılıb. Hemodializ şöbəsində 87 xəstəyə 4.091 hemodializ seanslar tətbiq olunmuşdur.

Rayon Gənclər və İdman İdarəsi tərəfindən 2016-cı ilin 6 ayında gənclərlə iş sahəsi üzrə 12, bədən tərbiyəsi və idman sahəsi üzrə 19 tədbir keçirilmişdir. Keçirilən tədbirlərdə gənclərin bütün təbəqələri təmsil olunmaqla 2.883 nəfər yeniyetmə və gənc iştirak etmişdir. Hesabat dövründə beynəlxalq yarışlarda 12, respublika yarışlarında 50 nəfər idmançımız mükafata layiq yerlər tutmuşdur.

2016-cı ilin ötən dövründə rayon üzrə əsas kapitala yönəldilən investisiyaların həcmi 13.200.000 manat, ümumi məhsul buraxılışının həcmi 68.608.000 manat olmuşdur ki, bu ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,8 faiz çoxdur. Sənaye məhsulunun ümumi həcmi 7.015.000 manat keçən ilə nisbətən 0,5 faiz çox, kənd təsərrüfatı məhsullarının həcmi 21.935.000 manat 2015-ci ilə nisbətən 2,9 faiz çox olmuşdur. Adambaşına düşən ümumi məhsulun həcmi 724 manat, orta aylıq əməkhaqqı 265 manat olmuşdur.

"Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ilə əlaqədar Qazax rayonunda davamlı surətdə yeni iş yerləri açılır. Ötən 6 ay ərzində 10 yeni müəssisə yaradılmışdır.

Rayon üzrə 218-i daimi olmaqla 1060 yeni iş yeri açılmışdır. 2016-cı ilin 6 ayı ərzində Qazax Məşğulluq Mərkəzinə 9 dövlət və 7 qeyri-dövlət müəssisələrindən 284 boş iş yeri təqdim edilmiş, müraciət etmiş 1.775 nəfər vətəndaşlardan 862 nəfəri iş axtaran kimi qeydiyyata alınmış, 634 nəfər münasib işlə təmin olunmuşdur.

Rayonda "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq təmir-tikinti, abadlıq, bərpa, quruculuq işləri ötən ildə olduğu kimi 2016-cı ilin 6 ayında da davam etdirilmişdir.

Rayonda Kənd Təsərrüfatı İdarəsi üçün inşa edilən iki mərtəbəli, mansardlı binanın tikintisi başa çatdırılmışdır. Heydər Əliyev Fondunun dəstəyi ilə Qazax şəhərində müasir tələblərə cavab verən Tarix Diyarşünaslıq Muzeyinin tikintisi davam etdirilir.

Respublika Prezidentinin Sərəncamına uyğun olaraq 2015-ci ildə qazılmış 9 ədəd subartezian quyuları yaxın vaxtlarda istifadəyə veriləcəkdir. 2016-cı ildə 5 ədəd qazılacaq subartezian quyularının əraziləri müəyyənləşdirilmiş, hazırda layihələndrimə işləri aparılır. Bundan əlavə daha 5 ədəd subartezian quyularının qazılması nəzərdə tutulmuşdur.

Ölkə Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq Qazax rayonunun Qazaxbəyli kəndi ərazisində 304 məcburi köçkün ailəsinə bütün infrastrukturlarla birlikdə yeni qəsəbənin tikintisi başa çatdırılmış və məcburi köçkün ailələri həmin binalara köçürülmüşlər.

Bərpa Agentliyi tərəfindən Yuxarı Salahlı kənd tam orta məktəbdə əsaslı təmir işlərinə başlanılmışdır. Uzunluğu 10 km olan Qazax-Kosalar avtomobil yolunun tikinti işlərinə başlanılmışdır.

Rayonun Birinci Şıxlı kəndində 220 başlıq heyvandarlıq fermasının tikintisi başa çatmış, 25 nəfər işlə təmin olunmuşdur.

Qızıl Hacılı kəndinin sakinləri üçün Nazirlər Kabinetinin 3 mart 2015-ci il tarixli 77s saylı Sərəncamı ilə 19,4 hektar torpaq sahəsinin təyinatı dəyişdirilmiş, 78 ailəyə fərdi yaşayış evlərinin bütün infrastrukturlarla birlikdə tikilməsi məqsədilə sənədləşmə işləri aparılır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2012-ci il tarixli 374s saylı sərəncamına uyğun olaraq köhnə mərkəzi rayon xəstəxanasının yerində yeni 145 çarpaylıq Mərkəzi rayon Xəstəxana Kompleksinin tikintisinə başlanılmışdır. Hələlik müvəqqəti olaraq işlər dayandırılmışdır. Yaxın vaxtlarda işlərə başlanılacaqdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ və şəhid ailələri üçün fərdi qaydada tikilməsi nəzərəd tutulmuş 14 yaşayış evindən 8 yaşayış evi istifadəyə verilmiş, 6 yaşayış evlərinin tikintisi davam etdirilir.

Dövlət Proqramına uyğun olaraq Qazax şəhərində tikintisi nəzərdə tutulmuş 100 yerlik körpələr evi-uşaq bağçasının tikintisi üçün layihə-smeta sənədləri hazırlanmış və baxılmaq üçün Fövqəladə Hallar Nazirliyinin Ekspertiza şöbəsinə göndərilmişdir. Qazax Sement zavodunun ikinci hissədə klinker istehsalı üzrə tikinti işləri davam etdirilir.

Yaxın vaxtlarda Qazax şəhərinin su-kanalizasiya sisteminin yenidən qurulması işlərinə başlanılması nəzərdə tutulmuşdur.

Qazax şəhərində Şəhidlər Xiyabanı qəbiristanlığında abadlıq-bərpa işləri aparılmış, belə ki, 500 m2 -dən çox döşəmə tamamilə dəyişdirilmiş, qəbir daşları və divarlar şilfovka edilmiş, çökmüş qəbirlər bərpa olunmuş, 400 m2 sahəyə qazon otu əkilmiş, şəhidlər bulağına su xətti çəkilərək xiyabanın yolu təmir olunmuşdur. Şəhər ərazisində olan bütün şəhid bulaqlarında təmir işləri aparılmışdır. Həmçinin rayonun Yuxarı Salahlı kəndində Şəhidlər Xiyabanında təmir işləri davam edir.

Rayonun girişində olan Obeliskin ətrafında yenidənqurma və abadlıq işləri aparılaraq şəbəkələr qurulmuş, 5000 m2 sayəyə qazon otu döşənmiş, həmin ərazinin suvarılması üçün su xətti çəkilmiş və işıqlanma sistemi qurulmuşdur. Hazırda işlər davam etdirilir.

Bundan əlavə bayraq meydanında və Nərimanov qəsəbəsindəki dairəvi yolda yenidənqurma işlərinə başlanılmışdır. Hazırda işlər davam edir.

Rayon ərazisində olan 10 ədəd çoxmənzilli yaşayış evlərinin həyətlərinə 6.000 m2-dən artıq asfalt örtüyü çəkilmişdir. Heydər Əliyev prospekti boyunca çalaların təmir olunmasına və həyətlərin giriş hissəsinə 50 tona yaxın asfalt örtüyü qoyulmuşdur.

Şəhərin prospekt və küçələrində olan 19 yaşayış evinin dam örtüyü dəyişdirilərək 3.000 m2 -ə yaxın dəmir kirəmit vurulmuş, 220 m2-ə yaxın hasar hörülmüş və 1800 m2 evlərin fasad hissələrində və hasarlarda suvaq işləri aparılmışdır.

Qazax şəhərinin prospekt və küçələrində yeni işıqlandırma sistemlərinin quraşdırılması işləri davam etdirilir.

Rayonun kənd yaşayış məntəqələrində 53 km uzunluğunda kənddaxili yollara qum, çınqıl döşənmiş, bu istiqamətdə işlər davam edir.

Məzəm və Quşçu Ayrım kənd sakinlərinin rayon mərkəzinə təhlükəsiz gediş və gəlişini təmin etmək məqsədilə Qazax-Quşçu Ayrım avtomobil yolunun Alpout kəndi ilə Quşçu Ayrım kəndini birləşdirən hissəsində alternativ olaraq ikinci yolun çəkilişi işləri davam edir.

Bərpa Agentliyi tərəfindən Bala Cəfərli və Məzəm kəndlərində dinc əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə 428 p/m istinad divarlarının inşası başa çatmışdır.

Bundan əlavə daxili imkanlar hesabına Məzəm kəndində birinci mərhələdə 8 ailənin həyətində ümumi uzunluğu 215 m olmaqla, 825 m2 istinad divarı çəkilmişdir. İkinci mərhələ tikinti işlərinə başlanılmış, hazırda işlər davam edir.

Quşçu Ayrım kəndinin əhalisinin təhlükəsizliyini təmin etmək məqsədi ilə yaşayış evlərinin düşmən mövqelərinə baxan pəncərələrinin hörülməsi üçün kənd sakinlərinə tikinti materialları verilmişdir.

Bala Cəfərli və Xanlıqlar kəndlərinin hər birində bir imkansız ailə üçün yaşayış evinin tikintisi başa çatdırılmışdır. Quşçu Ayrım və Ürkməzli kəndlərinin hər birində bir şəhid ailəsi və Dəmirçilər kəndində bir Qarabağ müharibəsi əlilinin evlərində əsaslı təmir və əlavə tikinti işlərinə başlanılmışdır. Hazırda işlər davam etdirilir.

Hər birinin illik istehsal gücü 50 min ton olan "Mətanət A" şirkəti tərəfindən Daş Salahlı kəndində və "Carçıoğlu" şirkəti tərəfindən Xanlıqlar kəndində 2 yeni Əhəng zavodlarının tikintisi davam edir. Həmin zavodlarda 450-yə yaxın yeni iş yerinin açılması nəzərdə tutulmuşdur.

Orta Salahlı kəndində aylıq gücü 30 min baş olan quşçuluq fermalarının tikintisi işləri davam etdirilir.

Qaymaqlı kəndində fəaliyyət göstərən fermada lizinq yolu ilə gətirilmiş 75 baş düyədən 76 buzov alınmış, hazırda təsərrüfatda əlavə tikinti işləri davam edir, daha 100 baş cins düyələrin gətirilməsi istiqamətində danışıqlar aparılır.

2016-cı ilin 6 ayı ərzində rayonda ağac əkini davam etdirilmiş, əkilmiş 138.500 ədəd ağacın 30.000 ədədi Bakı-Qırmızı Körpü magistral avtomobil yolunun Qazax rayonu ərazisindən keçən hissəsində əkilmişdir. Əkilmiş ağaclara aqrotexniki qulluq işləri göstərilir. 20.000 ədəd müxtəlif növ ağaclar və 60.000 ədəd gül kolları park və xiyabanlarda əkilmişdir.

2016-cı ilin birinci yarısında Qazax rayonunda kənd təsərrüfatı məhsullarının artırılması məqsədi ilə də bir sıra səmərəli işlər görülmüş və müsbət nəticələr əldə olunmuşdur.

Birinci Şıxlı kəndli Fermer Təsərrüfatı MMC-də tikinti işlərinə başlanılmış, 40 nəfər mövsümi işlə təmin olunmuşdur.

Kənd təsərrüfatı bitkilərini normal suvarma suyu ilə təmin etmək məqsədi ilə Qazax Suvarma Sistemləri İdarəsi və Melioserviz İdarəsi tərəfindən plana uyğun olaraq arxlarda 340 min m3 lildən təmizləmə işləri aparılmışdır.

2016-cı ilin məhsulu üçün 7799 hektar sahəyə taxıl səpilmişdir ki, bu da ötən ildən 2240 hektar çoxdur. Biçin başa çatmışdır, hektardan ümumi orta məhsuldarlıq 30,4 sentner, buğda 34 sentnerə yaxın olmuşdur. 23.710 ton məhsul götürülmüşdür ki, bu da 2015-ci illə müqayisədə 5493 ton artıqdır. 2016-cı ilin birinci yarımilində əkinə yararlı torpaq sahəsinin 14897 hektarı əkin altında olmuşdur ki, bundan 5559 ha buğda, 2240 ha arpa, 5668 ha yonca, 433 ha kartof, 127,5 ha yazlıq dənlilər, 43,5 ha tərəvəz, 34,5 ha bostan, 46,5 ha günəbaxan və sair əkilmişdir.

2016-cı ildə rayonda 1502 kq barama istehsal edilmiş və 10 hektar sahəyə tütün əkilmişdir.

Hesabat dövründə bitkiçilik sahəsində olduğu kimi, heyvandarlıq sahəsində də uğurlar əldə olunmuşdur. Süni yolla mayalandırılmış heyvanlardan 128 baş bala alınmışdır. Heyvandarlıq sahəsində zoobaytar tədbirlərin planlı surətdə həyata keçirilməsinin nəticəsidir ki, məhsul istehsalı dinamik surətdə artmaqdadır.

Qazax rayon Baytarlıq İdarəsi tərəfindən 2016-cı ilin 6 ayında epizootik, müalicə-profilaktik tədbirlər planına uyğun olaraq 30.111 baş iribuynuzlu və 1.757 baş təkdırnaqlılar, 136.970 baş xırdabuynuzlu heyvanlar qarayara, 57.840 baş iribuynuzlu heyvanlar, 92.757 baş xırdabuynuzlu heyvanlar dabaq, 5.806 baş sahibli ev itləri quduzluq xəstəliyinə qarşı peyvənd edilmişdir. Həmçinin 245.650 baş körpə ev quşları taun xəstəliyinə qarşı La-Sota ilə peyvənd olunmuşlar.

2016-cı ilin 6 ayı ərzində rayon İcra Hakimiyyətinə 661 müraciət daxil olmuşdur. Müraciətlərdən 173-ü Prezident Administrasiyasına, 15-i Milli Məclisə, 11-i Nazirlər Kabinetinə, 33-ü respublikanın digər təşkilatlarına, 429-u isə bilavasitə İcra Hakimiyyətinə ünvanlanan müraciətlərdir.

Rayon İcra Hakimiyyəti Başçısının aparatına daxil olan müraciətlərin təhlili göstərir ki, müraciətlərin 35 faizi mərkəzi orqanlardan, 65 faizi isə vətəndaşlar tərəfindən daxil olmuşdur. Daxil olan müraciətlərin 18 faizi müsbət həll olunmuş, 4,3 faizi qismən həll olunmuş, 0,1 faizi əsassız sayılmış, 65,3 faizinə müvafiq izahat verilmiş, 12,3 faizi isə hazırda icradadır.

2016-cı ilin 6 ayı ərzində Qazax RİH başçısı tərəfindən 23 səyyar görüş-qəbullar keçirilmişdir. Həmin görüşlərdə iştirak edənlərin sayı 7.844 nəfər, müraciət edənlərin sayı 250 nəfər olmaqla 177 təklif irəli sürülmüşdür. Qaldırılan problem və təkliflərdən 79-u icra edilmiş, 1 məsələyə dair işə başlanmış, 2 məsələ üzrə işlər davam edir, 95 təklif ilə əlaqədar isə aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırılmışdır.

Bundan sonra da Dövlət Proqramının icra olunmasında hər birimiz daha məsuliyyətlə çalışmalı, verilən tapşırıqların layiqincə yerinə yetirilməsində fəal iştirak etməliyik. Bu yolda hər birinizə uğurlar arzulayıram.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ TURNİR

**Qazax rayon İcra Hakimiyyətinin və Azərbaycan Kikboksinq Federasiyasının birgə təşkilatçılığı, Gənclər və İdman Nazirliyi və "Qazax Süd Məhsulları"nın təşkilatı dəstəyi ilə ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş kikboksinq idman növü üzrə Azərbaycan və Gürcüstan Respublikalarının peşəkar idmançıları arasında ənənəvi beynəlxalq turnir keçirilmişdir.**

Olimpiya İdman Kompleksində keçirilən tədbirdə Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov, Milli Məclisin deputatları, Azərbaycan Kikboksinq Federasiyasının Prezidenti Adil Əliyev, Kamran Nəbizadə, Fuad Muradov, "İrəli" İctimai Birliyinin sədri Mirhəsən Seyidov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərləri, hərbiçilər, veteranlar, əmək kollektivləri, idmançılar, QHT, KİV və ictimaiyyət nümayəndələri iştirak etmişdir.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad etmiş və abidəsi önünə tər çiçək dəstələri qoymuşlar.





Azərbaycan idmançıları arasında döyüşlərin keçirilməsi ilə başlamış reytinq görüşlərinin qalibi Gəncə-Samux idman məktəbini təmsil edən Elxan Əliyev və Qarabağ təmsilçisi Alışan Aslanlı olmuşdur.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbirdə çıxış edərək qonaqları salamladıqdan sonra bildirmişdir ki, bu gün ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş Kikboksinq idman növü üzrə Azərbaycan və Gürcüstan Respublikalarının peşəkar idmançıları arasında ənənəvi Beynəlxalq turnirin açılışına start verilir. Bu turnir artıq ənənəvi hal almışdır və hər il keçirilir.

Azərbaycan artıq idman dövlətidir. Bunu bütün dünya, idman ictimaiyyəti qəbul edir və bilir. Bir neçə gün bundan əvvəl, Azərbaycan nümayəndə heyəti avqustun 5-də Rio-de Janeyroda keçiriləcək XXXI Yay Olimpiya Oyunlarına yola düşmüşlər. Bu münasibətlə iyulun 18-də Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin rəsmi yolasalma mərasimi keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev həmin mərasimdə iştirak etmiş və geniş nitq söyləmişdir. Komandamız bu yarışlarda böyük heyətlə - 56 idmançı ilə iştirak edəcəkdir. Bu, London Yay Olimpiya Oyunlarında iştirak etmiş idmançılarımızdan xeyli çoxdur. Azərbaycanda idman strukturu yaradılır. Son illər ərzində bölgələrdə 40-dan çox Olimpiya İdman Mərkəzi tikilmişdir. Bakıda isə idman strukturu ən yüksək səviyyədədir. Burada yeni idman obyektləri istifadəyə verilmişdir: Milli Gimnastika Arenası, Bakı Olimpiya Stadionu,



Beynəlxalq Atıcılıq Mərkəzi, Su İdman Sarayı. Bu binalar eyni zamanda Bakını daha da gözəlləşdirir. Bütün bunların nəticəsidir ki, Azərbaycan idmançıları müxtəlif yarışlarda, Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında, yeniyetmələrin Olimpiya oyunlarında həmişə yüksək pillələrdə olmuşdur. Ölkəmizdə idmanın inkişafı və kütləviliyi ilə bağlı da çox düşünülmüş, ardıcıl siyasət aparılır və bu siyasət özünün müsbət nəticələrini dəfələrlə göstərmişdir.

Bakıda artıq bir necə mötəbər beynəlxalq yarışlar keçirilmişdir. Onların arasında əlbəttə ki, Avropa Oyunları xüsusi yer tutur. Bu oyunlarda 6 min idmançı iştirak etmişdir və minlərlə qonaq Azərbaycanla tanış olmuşdur. Avropa Oyunları bizim tarixi nailiyyətimizdir, qələbəmizdir. Bu, Azərbaycan idmanının və Azərbaycan dövlətinin zəfəridir. Burada idmançılarımız tarixi qələbə qazanmışlar, komanda hesabında II yeri tutmuşlar. Qazanılan 56 medaldan 21-i qızıl olmuşdur və bu da çox böyük tarixi nailiyyətdir.

Bu il Azərbaycanda ilk dəfə olaraq "FORMULA-1" yarışı keçirilmişdir. Bu yarış beynəlxalq reytinqə görə Yay Olimpiya Oyunlarının və futbol üzrə dünya çempionatının səviyyəsində olan yarışdır. Bunun tamaşaçı auditoriyası 500 milyon insan olmuşdur. Bu isə o deməkdir ki, 500 milyon insan Bakının gözəlliyini seyr etmişdir. Bu il Bakıda Dünya Şahmat Olimpiadası keçiriləcəkdir. Gələn il İslam Həmrəylik Oyunları təşkil olunacaqdır. Bütün bunlar ölkəmizin potensialını göstərir.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov Qazaxda keçirilən Kikboksinq növü üzrə ənənəvi Beynəlxalq turnirə görə bütün tədbir iştirakçılarını bir daha təbrik etmiş və bütün idmançılarımıza uğurlar arzulamışdır.

Milli məclisin deputatları, Azərbaycan Kikboksinq Federasiyasının Prezidenti Adil Əliyev, Kamran Nəbizadə, Fuad Muradov çıxış zamanı ölkəmizdə idmanın inkişafı ilə bağlı görülmüş işlərdən danışmışlar. İdman yarışlarının və bu cür tədbirlərin keçirilməsinin əhəmiyyəti barədə ətraflı məlumat vermişlər. Bildirmişlər ki, ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş bu cür yarışların keçirilməsi bütün xalqımız və idmansevər ictimaiyyət tərəfindən yüksək qiymətləndirir.

Gürcüstan Kikboksinq Federasiyasının Prezidenti Laşa Çuradze çıxışı zamanı bildirmişdir ki, belə tədbirlərin keçirilməsi idmanın inkişafından əlavə, həm də Azərbaycan və Gürcü xalqları arasında dostluq




əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edir.

Sonra Azərbaycanın və Gürcüstanın Dövlət Himnləri səsləndirilmiş və qısa konsert proqramından sonra yarışlara start verilmişdir.

Azərbaycan tərəfdən AKF yığma komandasının üzvləri Zöhrab Əzimov (60 kq), Ruslan Əliyev (63,5 kq), Arzuman Qədimov (67 kq), Ramal Aslanov (71 kq), Emil Mövsümzadə (75 kq), Ehtiram Rzayev (81 kq) və Bəhrəm Rəcəbzadə (94 kq) öz çəki dərəcələrində beynəlxalq turnirin qalibləri olmuşlar. Bir sözlə, bütün çəki dərəcələrində həmyerlilərimiz qalib gəlmişdir.

Yarışlar başa çatdıqdan sonra hər iki komandanın qalibləri Qazax rayon İcra Hakimiyyətinin gül buketləri, pul mükafatları və Azərbaycan Kikboksinq Federasiyasının kuboku və Fəxri Fərmanları ilə təltif olunmuşlar.

İdman yarışı Azərbaycan Televiziyasının "İdman Azərbaycan" kanalı ilə canlı yayımlanmışdır.

**Elçin İSMAYIL**

# MİLLİ MƏCLİSİN DEPUTATLARI İLƏ GƏNCLƏRİN GÖRÜŞÜ KEÇİRİLMİŞDİR



**Rayonumuzda fəal gənclərlə görüş olmuşdur. Görüşdə Milli Məclisin deputatları, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov, "İrəli" İctimai Birliyinin sədri Mirhəsən Seyidov, təhsil, səhiyyə, mədəniyyət və başqa sahələr üzrə çalışan fəal gənclər, tələbə və şagirdlər, idarə, müəssisə, təşkilat rəhbərləri, QHT və KİV nümayəndələri iştirak etmişdir.**

Tədbir iştirakçıları ilk öncə ulu öndər Heydər Əliyevin əziz xatirəsini böyük ehtiramla yad edərək abidəsi önünə gül-çiçək dəstələri qoymuşlar.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov Gənclər Mərkəzində keçirilən tədbiri giriş sözü ilə açaraq qonaqları salamlamış, görüşün məqsəd və əhəmiyyətindən danışmışdır. Qeyd etmişdir ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasəti bu gün möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə gənclər siyasəti ilə bağlı olduqca mükəmməl qanunvericilik bazası mövcuddur. Gənclər siyasəti ilə bağlı qanunlar var. Bununla əlaqədar 2 Dövlət Proqramı qəbul edilib və onlar uğurla həyata keçirilir. Ölkəmizdə bilikli, peşəkar və istedadlı gənclərin dəstəklənməsi üçün Prezident mükafatı təsis edilmişdir. Bu yaxınlarda Gənclər Fondu yaradılıb. Dövlət büdcəsindən bu fonda ayrılan vəsait hesabına görülən işlər gənclərin özlərini cəmiyyətdə təqdim etmələrinə şərait yaradıb. Başqa sözlə desək, bu fond gənc nəslə öz istedadlarını müəyyən etməyə, özünü cəmiyyətdə təqdim etməyə imkan yaradır və beləliklə, ölkəmizin inkişafına töhfə verir. Bu gün təhsil hökumətimiz üçün əsas prioritetlərdən biridir. Çünki biz tamamilə əminik ki, yalnız təhsilli, müxtəlif sahələrdə biliklərə malik insanlar həm ölkənin, həm də özlərinin inkişafına kömək edə bilər. Əgər dünyada inkişaf etmiş ölkələrin keçdiyi yola və əldə etdiyi nailiyyətlərə nəzər salsaq görərik ki, uğurlu inkişafın əsas vasitələri geniş enerji sərvətləri, mineral ehtiyatlar, neft və qaz yox, məhz təhsil, elm və texnoloji yeniliklərdir. Ona görə də ölkəmizdə təhsilin səviyyəsini artırmaq üçün bu sahəyə böyük sərmayələr qoyulur və ölkəmizdə olan universitetlərlə inkişaf etmiş ölkələrin təhsil ocaqları arasında beynəlxalq əlaqələr daha da genişləndirilir. Biz bu siyasətin faydasını görürük. Bu gün gənc nəsil yeni, müasir və müstəqil Azərbaycan dövlətinin qurulmasında, daha da möhkəmlənməsində fəal iştirak edir.



Ölkəmizin hər yerində olduğu kimi rayonumuzda da gənc nəslin təlim-tərbiyəsinə, onların sağlamlığının qorunmasına və bilik səviyyəsinin artırılmasına xüsusi diqqət və qayğı göstərilir. Onlarla tez-tez görüşlər keçirilir. Görüşlər zamanı qaldırılan problemlər yerindəcə həll edilir və təkliflər nəzərə alınır. Bu il bizim üçün sevindirici haldır ki, builki qəbul imtahanlarında iştirak edən məzunlardan yüksək nəticələr əldə edilib. Canalı kənd tam orta məktəbin məzunu İsmayılova Səbinə Emil qızı 700 bal, 6 nəfər isə 600-dən yuxarı bal toplamışdır. Biz bu məzunlarımızla fəxr edirik və onların müəllimlərini, valideynlərini bu qələbə münasibətilə təbrik edir, onlara yenicə qədəm qoyduqları həyatda uğurlar arzulayırıq.

Milli Məclisin deputatı Kamran Nəbizadə, Azərbaycan Kikboksinq Federasiyasının Prezidenti, deputat Adil Əliyev, MM-də Gənclər və İdman Komitəsinin sədri, deputat Fuad Muradov çıxış edərək ölkəmizdə gənclərin sağlamlığı, yüksək təhsil almaları və dərin biliklərə yiyələnmələri üçün hər cür şərait yaradıldığını bildirmişlər. Ölkəmizdə bu gün gənclər siyasətinin dövlətimizin prioiritet sahələrindən biri olması barədə ətraflı danışmış, gənclərə göstərilən diqqət və qayğıdan söz açmışlar.

Sonra tədbir gənclərlə açıq fikir mübadiləsi şəraitində davam etdirilmişdir. Fəal gənclərdən Fəridə İsgəndərova, Elvin Əmiraslanov, Prezident təqaüdçüsü Taleh Mansur, YAP Qazax rayon təşkilatının üzvü Elvin Mustafayev, BDU Qazax filialının TGT-nın sədri Nicat Məmmədov çıxış edərək qonaqları salamlamış və onlara göstərilən diqqət və qayğıya, köməyə görə Ölkə Prezidenti İlham Əliyevə, rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova öz dərin minnətdarlıqlarını bildirmiş, belə görüşlərin keçirilməsini yüksək qiymətləndirmişlər.

Səmimi söhbət əsasında keçirilən görüşdə gəncləri narahat edən, onları maraqlandıran suallar dinlənilmiş, irəli sürülən təkliflərə münasibət bildirilmişdir. Gənclər tərəfindən musiqi məktəbi üçün yeni binanın tikintisinə, müasir kitabxanaların və tələbə kartlarının yaradılmasına, pulsuz dil kurslarının təşkili, psixoloji mərkəzlərin açılmasına dair təkliflər irəli sürülmüşdür. Gənclərin irəli sürdükləri təkliflər, söylədikləri fikirlər Milli Məclisin deputatları tərəfindən müsbət qarşılanmış, onların həlli istiqamətində bütün imkanlardan istifadə etməklə işlər görüləcəyi bildirilmişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbirə yekun vuraraq millət vəkillərinə rayonumuzda gənclərlə görüşdükləri üçün minnətdarlığını bildirmiş, gənclərə çalışdıqları sahələrdə uğurlar arzulamışdır.

**Nüşabə HÜSEYNOVA**

# GƏNCLƏR BÖYÜK QÜVVƏDİR

## QAZAX RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI RƏCƏB BABAŞOV GƏNCLƏRLƏ GÖRÜŞ KEÇİRMİŞ, ONLARIN ARZU VƏ TƏKLİFLƏRİNİ DİNLƏMİŞDİR

**Gənclər Mərkəzində keçirilən görüşdə rayon və kəndlərdə yaşayan, təhsil, səhiyyə, mədəniyyət və başqa sahələr üzrə çalışan fəal gənclər, tələbə və yuxarı sinif şagirdləri, idarə, müəssisə, təşkilat rəhbərləri və KİV nümayəndələri iştirak etmişdir.**

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq gəncləri salamlamış, keçirilən görüşün məqsəd və əhəmiyyətindən danışmışdır. Qeyd etmişdir ki, "May ayının 19-dan bu günə kimi mən Qazax rayonunun kəndlərini qarış-qarış gəzdim. Qazaxın hər bir küçəsində oldum, evlərə baş çəkdim. İlk növbədə Qazaxın ağsaqqalları ilə görüşdüm. Təbii ki, Qazax gəncləri diqqətdən kənarda qalmamalıdır. Bugünkü görüşün əsas səbəbi də elə budur. Bir neçə gün bundan əvvəl, bu zalda gənclərlə görüş keçirildi. Diqqətimdən qaçmayan məsələ o oldu ki, rayonun bütün gəncləri burada iştirak etmirdi. Bu səbəbdən görüşün yenidən keçirilməsi barədə tapşırıq verdim. Buna görə də müxtəlif sahələrdə çalışan, kəndlərdə yaşayan gənclərin də belə görüşlərə cəlb olunmasını istədim. Mən Qazaxın küçələrini gəzəndə çayxanalarda oturan gəncləri gördüm. Buna mənim ürəyim ağrıdı. Qazaxın hər bir gənci mənim doğma övladımdır. Mən sizə o gözlə baxıram".

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov daha sonra qeyd etmişdir ki, "Gənclik insan ömrünün ən gözəl çağıdır. Bundan dəyərli, səmərəli istifadə etmək lazımdır. Mənim diqqətimi çəkən məsələlərdən biri də odur ki, nə üçün rayonumuzda Gənclər Təşkilatı olmasın. Qazax gəncləri başqa rayonun gənclərindən daha fəal, öz nəticələrinə görə üstündür. Mən sizin nəinki respublikada, eləcə də respublikadan kənarda fəaliyyət göstərmənizi, irəli çəkilərək yüksək vəzifələrdə çalışmağınızı istəyirəm. Qazax gənclərinin əsl ziyalı gənc kimi inkişaf etməsini arzu edirəm. Layihələrlə, məqsədyönlü fikir və təkliflərlə çıxış edin. Əmin olun ki, sizin irəli sürdüyünüz bütün təkliflər reallıqla həyata keçiriləcəkdir. Mən də öz növbəmdə sizin üçün hər cür şərait yaradaraq ehtimadınızı doğrultmağa çalışacam".

Rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova məruzə ilə çıxış edərək ölkəmizdə aparılan gənclər siyasətindən, onlara göstərilən diqqət və qayğıdan söz açmışdır.

Sonra çıxışlar olmuşdur. Təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı, BDU Qazax filialının direktoru, dosent Afaq Qasımova, AYB Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi Barat Vüsal, Prezident təqaüdçüsü, ağsaqqal Kamal Əhmədov, gənclər və idman idarəsinin rəisi Vüqar Nəbiyev, rayon poçtamtının rəisi Ədalət Hüseynov və başqaları çıxış edərək gənclərlə olan bu görüşün böyük əhəmiyyət kəsb etdiyini bildirmişlər.

Sonra söz gənc nəslin nümayəndələrinə verilmişdir. Gənclərdən Sərxan Qasımlı, Qoca Qurbanov, Əfsanə Mustafayeva, Gülnar Qurbanzadə, Zaur Nəsibov, Zəminə Vəliyeva, Nicat Məmmədov, Rövşən İsmayılov, Aygün Səmədli, Vüsal İsmayılov, Ləman Əliyeva, Ruslan Rzayev və başqaları müxtəlif təkliflərlə çıxış etmişlər. Gəncləri maraqlandıran suallar cavablandırılmış, irəli sürdükləri təkliflər dinlənilmişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbirə yekun vuraraq bu cür görüşlərin mütəmadi olaraq keçiriləcəyini bildirmişdir. Aidiyyəti şəxslərə rayon Gənclər Təşkilatının yaradılması üçün lazımi sənədlərin hazırlanması, rəy və təkliflərə baxılması barədə ciddi tapşırıq vermişdir.

**Nüşabə HÜSEYNOVA**

## 22 İYUL - MİLLİ MƏTBUAT GÜNÜDÜR

# PEŞƏ BAYRAMINIZ MÜBARƏK

**22 iyul - Azərbaycanda Milli Mətbuat Günü kimi qeyd olunur. Dövrün görkəmli ziyalısı Həsən bəy Zərdabinin 1875-ci ilin həmin günündə nəşr etdirdiyi "Əkinçi" qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuş, cəmiyyəti düşündürən problemləri, dövrün mütərəqqi ideyalarını əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır. Azərbaycanda maarifçilik hərəkatını formalaşdiran "Əkinçi"nin əsas məqsədi fanatizmi, cəhaləti aradan qaldırmaq, xalqı elmə, maarifə, tərəqqiyə çağırmaq, onun elmi-mədəni səviyyəsini yüksəltmək olub.**

Respublikanın hər yerində olduğu kimi rayonumuzda Milli Mətbuat Gününə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə rayon İcra Hakimiyyətinin məsul işçiləri, mətbuat nümayəndələri, jurnalistlər, təhsil və mədəniyyət işçiləri, KİV nümayəndələri iştirak etmişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq Azərbaycan Milli Mətbuatının 141-ci ildönümü münasibətilə mətbuat nümayəndələrini təbrik etmiş, onlara möhkəm cansağlığı və yaradıcılıq fəaliyyətlərində yeni-yeni uğurlar arzulamışdır. Bildirmişdir ki, 21 iyul 2016-cı il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları "Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrılması haqqında" və "Mətbuat işçiləri üçün yaşayış binasının tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" iki sərəncam imzalamışdır. Bu sərəncamlar milli mətbuat günü ərəfəsində Respublika Prezidentinin mətbuat işçilərinə və jurnalistlərə göstərdiyi diqqət və qayğının əyani nümunəsidir. Dövlətimiz tərəfindən bu cür diqqət və qayğı mətbuat nümayəndələrinə həmişə olmuşdur. Ulu öndər Heydər Əliyevin mətbuat nümayəndələrinə göstərdiyi diqqət və qayğı bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Yuxarıda göstərilən sərəncamlar dediklərimizi bir daha təsdiq edir.



"Göyəzən" qəzetinin baş redaktoru Elçin İsmayıl mətbuat işçiləri adından çıxış edərək həmkarlarını təbrik etmiş, gələcək işlərində uğurlar arzulamışdır. Qeyd etmişdir ki, yarandığı 141 il ərzində Azərbaycan milli mətbuatı zəngin və mənalı bir inkişaf yolu keçmişdir. Azərbaycan xalqının qədim ədəbi və mədəni irsə malik olması, Şərq və Qərb sivilizasiyasının qovuşduğu məkanda formalaşmış mədəniyyəti demokratik milli mətbuatın gələcək inkişafı üçün möhkəm zəmin yaratmışdır. Milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir. Natiq çıxışında onlara göstərdiyi diqqət və qayğıya, isti münasibətə görə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova bütün mətbuat işçiləri adından öz dərin minnətdarlığını bildirmişdir.

Tədbirin sonunda bir sıra mətbuat işçilərinə Qazax rayon İcra Hakimiyyəti Başçısının Fəxri Fərmanı və qiymətli hədiyyələr təqdim olunmuşdur.

**"GÖYƏZƏN"**

# YAP Qazax rayon təşkilatının yaradılmasının 23-cü ildönümü qeyd olunmuşdur

**YAP Qazax rayon təşkilatının yaradılmasının 23-cü ildönümü ilə əlaqədar tədbir keçirilmişdir. Tədbir iştirakçıları əvvəlcə partiyanın yaradıcısı, ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad etmişlər.**



YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov tədbiri giriş sözü ilə açaraq bu əlamətdar gün münasibətilə bütün partiya üzvlərini təbrik etmiş və səmimi arzularını çatdırmışdır.

Ötən müddət ərzində dünyasını dəyişmiş partiya üzvlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunmuşdur.

Sonra YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov məruzə ilə çıxış etmişdir. Bildirmişdir ki, biz hər il ənənəvi olaraq YAP Qazax rayon təşkilatının yaradılmasının ildönümünü qeyd edirik. Hər kəsə yaxşı məlumdur ki, Yeni Azərbaycan Partiyasının Azərbaycanın müasir tarixində öz yeri və siyasi gücü vardır. YAP-ın yaranma dövrünü göz önünə gətirdiyimiz zaman görürük ki, partiyamız üzləşdiyi bütün çətinliklərdən, sınaqlardan həmişə üzü ağ çıxmışdır. Yeni Azərbaycan Partiyasının apardığı siyasətin nəticəsidir ki, ölkəmizdə bütün sahələrdə inkişafa nail olunub, ölkəmizin beynəlxalq aləmdə nüfuzu artmışdır. Respublikamız möhtərəm prezidentimiz, partiyamızın sədri İlham Əliyevin rəhbərliyi altında uğurla inkişaf edir. Bu gün partiyamız ulu öndərin siyasi xəttini inamla və dönmədən həyata keçirir. Məhz bu siyasətin nəticəsidir ki, o zamandan bəri ölkədə keçirilmiş bütün seçkilərdə YAP və onun lideri qalib gəlib.

Məruzə ətrafında YAP Qazax rayon təşkilatının Şura üzvlərindən Abbas Göyüşov, Tərlan Bədəlova, rayon təşkilatının sədr müavini Səfurə Vəliyeva, partiya fəalı Bəsti Ələkbərova çıxış etmişlər. Rayon təşkilatının ötən dövrlərdəki fəaliyyətindən, keçdiyi yoldan danışmış və təbriklərini çatdırmışlar.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbirdə çıxış edərək Yeni Azərbaycan Partiyasının cəmiyyətdəki rolundan, gördüyü genişmiqyaslı işlərdən ətraflı danışmışdır. Bildirmişdir ki, YAP Azərbaycanın aparıcı siyasi qüvvəsidir və ən böyük partiyasıdır. YAP sözün əsl mənasında xalq partiyasıdır. Xalqımızın bütün təbəqələri, bütün yaş qrupları partiyamızda birləşir və ölkəmizin uğurlu inkişafı üçün öz fəaliyyətlərini göstərirlər. YAP-nın yaradıcısı, ulu öndər Heydər Əliyevin siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda ölkəmizdə siyasi və iqtisadi islahatlar uğurla aparılır. Azərbaycan bir neçə nüfuzlu beynəlxalq təşkilatın üzvüdür. Ölkəmizə böyük həcmdə investisiyalar cəlb edilmişdir və bu investisiyalar hesabına Azərbaycan bu gün sürətlə inkişaf edir. Bütün dünyada etibarlı tərəfdaş imici qazanmışdır. İcra Başçısı daha sonra rayonda görülən işlərdən danışmışdır. Bildirmişdir ki, rayonda güclü tikinti-abadlıq və quruculuq işlərinə start verilmişdir. Rayonumuz bu gün çox geniş və uğurlu bir inkişaf yolunun başlanğıcındadır. Çox yaxın vaxtlarda biz bu inkişafın, əldə olunmuş uğurların sizinlə birgə şahidi olacağıq. Biz partiya üzvlərinin köməyi ilə rayonumuzda bütün sahələrdə uğurlar qazanacağıq, rayonumuz daha da inkişaf edəcəkdir.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxışının sonunda YAP Qazax rayon təşkilatının bütün üzvlərini təbrik etmiş, onlara möhkəm cansağlığı, çətin və məsuliyyətli işlərində yeni-yeni uğurlar arzulamışdır.

# İSMAYIL ŞIXLININ ANIM MƏRASİMİ KEÇİRİLMİŞDİR

**İyul ayının 27-də görkəmli yazıçı İsmayıl Şıxlının vəfatından 21 il keçir. Bu münasibətlə Qazax rayonunda xalq yazıçısı İsmayıl Şıxlının anım günü keçirilmişdir.**

Görkəmli söz ustadının adını daşıyan parkda, yazıçının xatirəsinə ucaldılmış abidəsi önündə keçirilən anım mərasimində Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov, icra aparatının məsul işçiləri, şairlər, jurnalistlər, müəllimlər, ictimaiyyət və KİV nümayəndələri, yazıçının yaxın qohumları iştirak etmişdir.



Tədbirə toplaşanlar əvvəlcə yazıçı İsmayıl Şıxlının abidəsi önünə gül dəstələri qoymuş, əziz xatirəsini böyük ehtiramla yad etmişlər.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq bildirmişdir ki, İsmayıl Şıxlının adı çəkilən zaman əsl müəllim, görkəmli alim, istedadlı yazıçı, kişi xarakterli bir insan yada düşür. Millilik, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, milli mədəniyyətin, milli əxlaqın gənc nəslə çatdırılması baxımından onun əsərlərinin dəyəri və ibrət dərsləri çox güclüdür. Onda milli hiss və Vətən sevgisi təsvir olunmayacaq dərəcədə güclü olub. İsmayıl Şıxlı həyatın özündən doğan mövzular yazaraq, zamanın nəbzini tutub və günün mühüm məsələlərinə toxunub. Mənəvi-ictimai problemləri ön plana çəkərək dövrün, yaşadığı mühitin eybəcərliklərini ifşa və tənqid hədəfinə çevirib. Yazıçının əsərləri azərbaycançılıq ideyası əsasında qurulduğundan hər dövr üçün aktuallığını qoruyaraq saxlaya bilib. Məlumdur ki, xalqın milli-fəlsəfi fikri öz əksini bədii ədəbiyyatda tapır. Milli xüsusiyyətlərin, milli keyfiyyətlərin, milli ruhun, adət-ənənələrin yaşanmasında bədii ədəbiyyatın da böyük rolu var. Bu baxımdan da İsmayıl Şıxlının əsərlərində milli ideyanın təlqin və təbliği mühüm əhəmiyyət kəsb edir.

Şairlərdən AYB Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi Barat Vüsal, Tamella Poladlı, yazıçının yaxın qohumlarından Rahib Vəliyev və başqaları çıxış edərək İsmayıl Şıxlı yaradıcılığından söz açmış, Azərbaycan ədəbiyyatına bəxş etdiyi töhfədən danışmışlar

Sonda tədbir iştirakçıları xalq yazıçısı İsmayıl Şıxlının abidəsi önündə xatirə şəkili çəkdirmişlər.

**Xuraman ƏZİMOVA**

# “Hər evə bir qəzet” layihəsi uğurla həyata keçirilir

***Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov rayonumuza təyin olunan ilk gündən bütün idarə və müəssisələrə diqqət və qayğı artırıldı. Cənab Başçı təhsil, mədəniyyət, səhiyyə müəssisələrini qarış-qarış gəzərək problemlərlə maraqlandı, onların həlli üçün aidiyyatı şəxslərə məqsədyönlü tapşırıqlar verdi. Rayonda elə bir sahə yoxdur ki, rayon İcra Hakimiyyəti Başçısının diqqətindən kənarda qalsın, orada inkişaf, yenilik olmasın.***

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov bütün sahələrə olduğu kimi “Göyəzən” qəzetinə də elə ilk gündən diqqət və qayğı göstərir. Bu, onun mətbuata və mətbuat sahəsində çalışanlara olan hörmət və rəğbətindən irəli gəlir.

Danılmaz faktdır ki, əvvəllər “Göyəzən” qəzeti müxtəlif problemlərlə üzləşirdi. Maliyyə çətinlikləri üzündən ayda bir və ya ayda iki dəfə nəşr olunurdu. Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun dəstəyi ilə indi qəzetin tirajı və dövrüləliliyi artmışdır. Ən başlıcası isə odur ki, indi “Göyəzən” qəzeti tamamilə rəngli və yüksək dizayn olunmuş şəkildə nəşr edilir. Bir sözlə, qəzet bu gün yeni tərtibatda işıq üzü görür. Bu da oxucuların olduqca xoşuna gəlir, onlar tərəfindən yüksək qiymətləndirilir. Onu da qeyd edək ki, bu gün “Göyəzən” qəzeti Azərbaycanda yeganə rayon qəzetidir ki, belə yüksək tərtibatla, eyni zamanda ən yaxşı kağızda çap olunaraq oxucuların ixtiyarına verilir.

Onu da qeyd edək ki, əvvəllər qəzet yalnız rayonda fəaliyyət göstərən idarə və müəssisələrə paylanırdı. Hal-hazırda isə rayonda hər evə bir qəzet verilir. Rayon poçt şöbəsi tərəfindən ayrılmış xüsusi poçtalyonlar tərəfindən qəzet nəinki şəhər, o cümlədən kənd sakinlərinə də vaxtlı-vaxtında çatdırılır. Hər bir rayon sakini bunu razılıqla qarşılayır. Çünki onlar bu qəzet vasitəsilə rayonda gedən ictimai-siyasi proseslərdən, aparılan tikinti-quruculuq işlərindən xəbər tutur, ədəbi-bədii və publisistik yazılarla tanış olurlar. Bu məqsədyönlü iş biz qəzet işçilərini də sevindirir. Çünki qəzetimiz hər bir qazaxlının qapısını xoş xəbərlərlə döyərək qonağı olur.

“Göyəzən” qəzetinin belə bir yüksək səviyyəyə gəlib çatmasında düzdür, başda baş redaktor Elçin İsmayıl olmaq şərtilə redaksiya əməkdaşlarının əməyi danılmazdır. Amma biz deyərdik ki, bu gün uzun illərdən bəri qəzetlə bağlı qəlbimizdəki arzuların çin olmasında rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun çox böyük əməyi vardır. Bəli, yalnız cənab Başçının xeyir-duasından sonra “Göyəzən” qəzeti belə yüksək bir tərtibatla, oxunaqlı şəkildə oxucuların ixtiyarına verildi. Bütün bunlara görə, “Göyəzən” qəzetinin yaradıcı kollektivinə göstərdiyi diqqət və qayğıya görə cənab Rəcəb Babaşova bütün kollektivimiz adından, qəzetimizin bütün çoxminli oxucuları adından öz dərin minnətdarlığımızı bildiririk. Əmin edirik ki, “Göyəzən” qəzetinin yaradıcı kollektivi göstərilən böyük diqqət və qayğıya öz əməli işləri ilə cavab verəcək, Qazaxın çiçəklənməsi naminə əlindən gələni əsirgəməcək, bu yolda rayon rəhbərliyinə yardımçı olacaqdır.

**“GÖYƏZƏN” QƏZETİNİN KOLLEKTİVİ**

# SƏNİNLƏ FƏXR EDİRİK

***Qazax rayonunda bütün sahələrdə olduğu kimi təhsil sistemində də uğurlarımız ildən-ilə artır. Belə ki, 2015-2016-cı tədris ili də bir çox uğurlu göstəricilərlə yadda qalmışdır. Hər il olduğu kimi bu il də yüksək nəticə göstərərək müxtəlif ali məktəblərə daxil olan məzunlarımızın sayı artmışdır. Daha çox yaddaqalan hadisə isə bir nəfər məzunumuzun rekord bal olan-700 balı toplayaraq Qazaxın adını yüksək nəticə göstərən şəhər və rayonların sırasına yazdırmasıdır. Tələbə Qəbulu Üzrə Dövlət Komissiyasının iyulun 15-də keçirdiyi imtahanda I və IV ixtisas qrupları üzrə respublikamızda 6 nəfər məzun 700 bal toplayaraq yüksək nəticə göstərmişdir ki, həmin məzunlardan biri də İsmayılova Səbinə Emil qızıdır.***

O, Canalı kənd tam orta məktəbin məzunudur. Səbinə yüksək nəticə göstərərək nəinki oxuduğu məktəbin, eləcə də rayonumuzun adını ucaltmışdır. Belə ki, 700 bal toplayan S.İsmayılova Azərbaycan Tibb Universitetinə daxil olaraq həm valideynlərini, həm də müəllimlərini sevindirmişdir.

Onunla müsahibə zamanı Səbinə söylədi ki, müalicə işi ixtisası üzrə təhsilini davam etdirmək istəyir. Səbinə 2005-ci ildə orta məktəbə getdiyi elə ilk gündən istedadı ilə fərqlənən bir şagird olub. Atası hərbçi, anası müəllim olan Səbinə həm də özündən kiçik olan iki qardaşının da dərslərini hazırlamaqda onlara həmişə kömək edərmiş. Riyaziyyat fənnini digər fənnlərdən daha çox sevsə də, uşaq vaxtlarından həkim olmağı arzulayırmış. Bizimlə söhbətində bildirdi ki, həmişə yaxşı həkim olub insanların sağlamlığının qeydinə qalmaq istəyib: ”Çox sağ olsun ki, valideynlərim də, müəllimlərim də mənim bu arzuma həmişə dəstək olublar. Buna görə də bəzən dayanmadan, dincəlmədən oxuyub, hazırlaşmışam ki, hamının ümidini, arzusunu doğruldum”. Hər bir fənni eyni dərəcədə, eyni məsuliyyətdə oxuyan Səbinə İsmayılova müəllimlərinin hamısından böyük razılıq edərək ”Ailəmizdə həmişə elmə, təhsilə, savada böyük önəm verildiyinə görə biz hamımız oxumağa həvəsli olmuşuq. Bir də ki, elm və təhsil həmişə Qazaxda çox güclü olub” dedi.

Səbinə həmçinin onu da bildirdi ki, sınaq imtahanlarında həmişə 600-dən yuxarı bal toplayırdım. Hər zaman özümdə bir əminlik hissi var idi ki, mən qəbul imtahanında da yüksək nəticə əldə edəcəyəm. Bəli, mən bu gün üzərimə düşən işi 100% yerinə yetirərək yaxınlarımı, müəllimlərimi, sözün həqiqi mənasında heyrətləndirdim. Çünki uşaqlıqdan məndə bir istək olub həmişə. Qarşıma qoyduğum məqsədə çatmaq arzusu. Bu gün mən ən böyük məqsədimə çatmaqla çox xoşbəxtəm.

Sonda Səbinə valideynlərinə, müəllimlərinə və ona dəstək olan hər kəsə minnətdarlığını bildirərək, qəbul olub oxuyacağı həkimlik ixtisasında da nümunəvi təhsili, tərbiyəsi ilə hamını sevindirəcəyinə söz verdi.

Biz də öz növbəmizdə Səbinə İsmayılovanı qazandığı bu böyük uğur münasibətilə təbrik edir və gələcək təhsilində ona daha böyük uğurlar, nailiyyətlər arzulayırıq.

**“GÖYƏZƏN” qəzeti redaksiyası**


# ELAN

## Qazax rayon Polis şöbəsi tərəfindən

“İctimai asayişin qorunmasında vətəndaşların iştirakının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2 mart 2016-cı il tarixli Fərmanının icrası çərçivəsində Qazax rayon Polis şöbəsində vakant olan “Polisə ictimai dəstək” mülki vətəndaş vəzifələrinə vətəndaşların qəbulu ilə əlaqədar müsabiqə keçirilir.

➔ “Polisə ictimai dəstək” mülki vətəndaş vəzifəsinə şəxsi və işgüzar keyfiyyətlərinə görə fərqlənən, müddətli həqiqi hərbi xidmət keçmiş (qadınlar istisna olmaqla) yaşı 20-dən az və 24-dən çox olmayan, boyu 175 sm-dən yuxarı olan Azərbaycan Respublikası vətəndaşı qəbul edilir.

➔ İctimai asayişin qorunmasında iştirak etmək istəyən vətəndaşlar aşağıdakı sənədləri təqdim etməlidirlər:

➔ Şəxsi ərizə;

➔ Şəxsiyyətini təsdiq edən sənədin surəti;

➔ Hərbi biletin surəti;

➔ Tərcümeyi-hal;

➔ 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil.

Vətəndaşlar həftənin hər günü (bazar günü istisna olmaqla) saat 9:00-dan 18:00-dək Qazax rayon Polis şöbəsinin Kadr şöbəsinə müraciət edə bilərlər.

**Əlaqə telefonu: (070) 725-87-82**


# Qazaxın quruculuq salnaməsi



Obelisk



Şəhidlər Xiyabanı



Qazax-Kosalar yolu



Bayraq meydanı



Qüllə meydanı



Yeni təmir olunmuş evlər


Baş redaktor: ELÇİN İSMAYIL

TƏSİSÇİ: QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN: QAZAX ŞƏHƏRİ, H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor)
5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB38060019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ: 2200 SİFARİŞ: 2079

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir. Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib.
Foto: Mehman Vələdov.